Yarıda qırılan ömrün yaddaşlarda yaşayan şeirləri

- Ürəyimə damıb, 48 yaşımda bu dünyanı tərk edəcəyəm - bu fikri bir dəfə Gəncədə olarkən demişdi. Saç ustasının yanından çıxdıqdan sonra söylədi ki, usta işləyərkən güzgüdə sifətimin necə əridiyini gördüm, saçım su kimi axıb sifətimi tuturdu, dedim bu da sonu... Amma tədricən özümə gəldim. Bilmirəm vəziyyətimi usta hiss elədimi, baxışlarında bir qəribəlik sezdimi, amma mənə bir söz demədi. Mən də heç nə demədim, 48-i keçsəm, çox yaşayacağam, bəlkə 100-ü də keçdim. İstedadlı mərhum şair Şamxal Rüstəmin sözləridir. 48-i keçdi, amma çox yaşamadı, bəlkə də həyatını necə gəldi yaşamasını, yaradıcılığa laqeydliyini, istedadını "qara pul" kimi xərcləməyini ürəyi ona bağışlamadı.

Ölsəm də öldü deməyin mənə,
Ölüm özü də ikinci bir həyatdır.
Onun misrasıdır.

Haqlı idi, yarımçıq ömrün poetik duyğuları qəfil güllə səsindən pərən-pərən olub, perik düşmüş quşlar kimi yaddaşlara "qonub", yalnız xatirələrdə yaşayır...

Tələbə yoldaşı idik. İkinci kursdan bizə qoşuldu. Onun gəlişi tələbə həyatımıza, insani münasibətlərimizə, hətta təhsilimizin səviyyəsinə də təsir göstərdi. Təsadüflə başlayan münasibət həyat tərzimizə, insanlara münasibətimizə, bəlkə də şəxsiyyət kimi məhz bu cür formalaşmağımıza da təsir etdi. Yadımdadır, hələ o vaxtdan adlı-sanlı şairlər arasında hörmət sahibi idi. Hansının yeni bir şeir kitabı nəşr olunurdu, böyük məmnuniyyətlə avtoqraf yazıb Şamxala da hədiyyə edirdi. Günlərin birində şair Tofiq Bayramın daha bir kitabı nəşr olunmuşdu, kitabın adı və nəşr ili yadımda deyil. Şamxala hədiyyə etdiyi kitaba qəribə də avtoqraf yazmışdı:



Bir sözüm var,
şair dostum Şamxala,
Söylə neylər işıq
salsa Şam Xala…

Amma o şam Şamxalın ömrünə işıq salmadı, yarımçıq ömür, nakam tale laqeydlik dumanına büründü. Buna tale neyləsin...

Tələbə Şamxal Rüstəm çox istedadlı idi, ədəbi mühitdə hörmət qazanmışdı. Onda belə səmimi sözlər yazılmış avtoqraflı kitablar çox idi, ürək sözləri bir az qeyri-adi təsir bağışlasa da, yüksək poeziya nümunələri idi… Bütün bunlar onun istedadına, gələcək uğurlarına inam ifadə edirdi...

Hələ tələbəlik illərində yazdığı "Tələbəyəm, mən zamanın tələbiyəm" şeiri böyük səs-səda doğurdu. Ölkə televiziyası həmin şeirdən rubrika ilə silsilə verilişlər hazırladı, qəzetlər tələbə həyatını bu rubrika ilə gündəmin başlıca mövzusuna çevirdilər. Sonra "Elə qəmli dayanma" şeirinə yazılan mahnı dillər əzbəri oldu. Azərbaycanın Xalq artisti Flora Kərimovanın ifasında həmin mahnı televiziyamızın qızıl fondunda saxlanılır. İlk vaxtlar bu mahnı oxunanda sözləri Süleyman Rüstəmindir, deyirdilər. Bunu Süleyman Rüstəmdən soruşanda, xatırlamıram, ola bilsin, gənclikdə yazmışam, xatırlamıram, deyib. Səhvin səbəbi o idi ki, mahnı efirə gedəndə "Ş.Rüstəm" imzasını "S.Rüstəm" kimi başa düşüblər. "Gözləyirəm yolunu" da Şamxal Rüstəmindir, oxunanda adını demirlər, amma biz tələbə yoldaşları bilirik.

Onun Fondda saxlanan xeyli mahnıları var.

Mətbuatda ilk şeiri 1972-ci ildə "Ulduz" jurnalında çıxdı. Onda ikinci kursun tələbəsi idi. O vaxt deyirdi ki, kitabım plana salınıb, bu yaxınlarda işıq üzü görəcək. Amma çıxmadı, niyə, o da müəmma olaraq qaldı.

Yarımçıq bir ömür yaşadı. Səssizliyə çəkildi, necə yaşadı, nə vaxt həyata vida etdi, bilmədik. Özünə qapanan, dünyadan və sənətdən küskün Şamxalın ölüm xəbərini çox sonralar eşitdik. Bu gözlənilməz xəbər onu tanıyanlar üçün günəşli səmada ildırım kimi çaxdı. Ömür qismətdir. Bəlkə də bu yarımçıq ömür onun laqeydliyinin, istedadına "xəyanətinin" tale qisməti idi.

Özünə, yaradıcılığına laqeydliyi haqqında o vaxt tələbə yoldaşımız Vaqif Bəhmənlinin danışdığı bir əhvalat yadımdadı. Deyir, Bakıya leysan yağış yağmışdı. Yağışdan sonra Şamxalın kirayənişin qaldığı evə gedəsi olduq. Otağa daxil olanda qarşılaşdığım mənzərədən çaşıb qaldım, bir müddət don vurmuş adam kimi dilim söz tutmadı. Evin tavanının bir yerindən yağış dammış, onun şeirləri yazılmış vərəqləri tamamilə məhv etmişdi. Mən dözmədim, acı təəssüf hissi yaşadım, onun sifətində isə qəribə bir təbəssüm vardı...

O böyük istedad sahibinin bir şeirlər kitabı da çıxmadı, bəlkə də kitab nəşr etdirmək heç yadına da düşmədi. Yalnız uşaq şeirlərindən ibarət bir kitabı nəşr olundu. Amma onun şeirləri hafizələrdə qaldı, dillər əzbəri oldu. Onu da qeyd edim ki, təxminən 50 il sonra Şəmkirin Dəllərcəyir qəsəbəsində qonşusu olmuş şair-jurnalist Məhərrəm Vüqarlı və Vasif Süleyman Şamxalın dərc olunan, dostlarının və poeziyasevərlərin yaddaşında "yaşayan" şeirlərini toplayıb kitab halına saldılar. Həmin kitab 2022-ci ildə "Qanun" nəşriyyatında işıq üzü gördü.

Şamxalın hələ sağlığında nəşr edilən uşaq şeirləri kitabı və ölümündən çox sonra dostlarının təşəbbüsü və qayğısı ilə işıq üzü görən şeirlər toplusudur.

Yaddaşlarda qalan isə tələbə dostlarının, onu sevən, xatirəsini əziz tutanların xatirələri və qəribə əhvalatlardır. Tələbəlik illərində Bakıda kirayə yaşadığımız evin yaxınlığında bir aptek vardı və orada yeniyetmə, çiçək kimi incə, zərif bir qız işləyirdi. Rəhmətlik Şamxal hər dərsə gedəndə yolunu Sarayın yanındakı o aptekdən salar, dərman istəyi ilə qızla söhbətdən, onun zərifliyi və məsumluğundan ləzzət alardı. "Qoca tələbələrdən" çox gənc, günəşli göy üzü kimi aydın, işıqlı siması, gülər gözləri olan şəkili qıza zarafatyana bir şeir də yazmışdı.

Görəsən həmin şeirin mətni o qızda qalırmı... Çətin, Şamxalın şeirləri də onun taleyi kimi yarımçıq tale yaşadı, o şeirlər qırılan təsbeh "muncuqları" kimi darmadağın oldu... İndi haradadı, kimdədi o şeirlər...

Allah Şamxal Rüstəmə rəhmət eləsin, xəstəhal olsa da, çal-çağırlı poeziya ilə qol-boyun bir ömür yaşadı. Əslində belə demək də düzgün deyil, bu dünyanı erkən tərk etdi. Yaşamı hay-həşirli, gedişi səssiz-səmirsiz oldu. Nə qədər yazılmamış şeiri qaldı, nə qədər dost görüşü tufana düşdü. Sən saydığını say, gör fələk nə sayır. Fələyin qisməti də belə...

Hələ sağlığında Şamxal haqqında düşünəndə həmişə bir şeiri tale yazısı kimi məni düşündürüb:

Yetməmişəm çətində
çox doğmamın dadına,
Çoxunu unutmuşam,
çoxu gəlmir yadıma.
Bir quzu kəsilibmiş
doğulanda adıma,
Bircə biləydim məni
kimin qarğışı tutdu.
Hər çiçəyi, hər gülü
leysan yağışı tutmaz,
Xata hər ömrü tutmaz,
bəla hər başı tutmaz.
Süd əmmişəm döşündən,
ana qarğışı tutmaz,
Bircə biləydim məni
kimin qarğışı tutdu...

"Döşündən süd əmmişəm, ana qarğışı tutmaz" deyirdi, sonra da özündən soruşurdu, görən kimin qarğışı tutdu, məni... Amma yarıda qırılan həyat, bada verilən ömür-gün Yaradanın ona səxavətlə verdiyi böyük ürəyin ah-fəğanı idi, ondan belə qisas aldı...

Ondan nə qaldı? Bir dostların, poeziyasevərlərin yaddaşına yazılan səmimi şeir nümunələri, uşaqlar üçün yazdığı şeirlər toplusu, bir də vəfatından çox-çox sonralar dost qayğısının əks-sədası kimi işıq üzü görən bir kitab...

Bizlərdən biri bu dünyanı ondan tez tərk etsəydik, Şamxal xatirə yazardı, özü də necə yazardı, daxilən təmiz, saf olanların qələmi də saflığa, təmizliyə işləyər. O getdi, əvvəlcə ədəbi mühitdən, dosttanışdan, sonra da həyatdan... Allahın işidir.

Tələbə dostlarımız, onu tanıyanlar ürək sözlərini bölüşürlər. Mən də yaddaşa söykəli bəzi məqamları yazdım. Şamxalın ruhu bağışlasın, çünki onu, həyatını və yaradıcılığını tərənnüm etmək hər adamın işi deyil…

Xatirələr çoxdu... Belə xatirələr kimdə varsa, qoy yazsın, bəlkə toplanıb bir kitab oldu, onun haqqında sağlığında nəşr olunmayan daha bir kitab...

Vaqif TANRIVERDİYEV,
"Respublika".